Namaz qılmayanı namaza dəvət edərkən ...

Rəhimli və Mərhəmətli Allahın adı ilə

Həmd olsun aləmlərin Rəbbi olan Allaha, Allahın salamı və salavatı olsun peyğəmbərimiz Muhəmməd və onun ailəsinə və səhabələrinə.
Bundan sonra:

Əvvəla hər bir insan öz Yaradanını yaxşı tanımalıdır. Yaradanı tanımaq isə heç də çətin deyil. Məsələn: Allahı tanımaq üçün çox uzaqa getmək lazım deyil, ətrafımıza düşünərək baxsaq kifayət edər.

Məsələn Qarşımızda və yaxınlıqda olan hər hansı bir əşyaya baxaq və özümüzə belə bir sual qoyaq, gördüyümüz bu əşya öz -özünə yarana bilərmi ? Məsələn: Əlimizdəki qələm, yazdığımız dəftər və oxuduğumuz kitab, öz özünə yarana bilərmi? Cavab yox . Əgər bir qələm varsa mütləq kiminsə tərəfindən düzəldilib .Bir dəftər və ya kitab varsa deməli mətbəə var. Əgər paltar yuyan və ət çəkən maşın varsa demək onun fabriki və istehsalçısı var və s.

Bütün bu sadaladığımız və sadalamadığımız bir cox əşyalar, insan beyninin səmərəsi və bəhrəsidir. Bütün bunların səbabkarı insandır. Və şək yox ki insan bütün cansız əşyalardan daha bahalı, daha qiymətli və daha önəmlidir. Bir az düşünsək, necə ola bilər ki, cansız əşyaların düzəldilməsi ücün bir alimə və yaxud mühəndisə ehtiyac olsun amma, təbiətdəki milyonlarla canlı orqanizimlərin və bunlarında başında, insanın yaradılması üçün, heç kimə ehtiyac olmasın . Deməli bir böcək belə öz özünə yarana bilmirsə, bəs onda milyonlarla müxtəlif varlıqlar və bununda başında ən qiymətlisi olan insan da necə öz - özünə əmələ gələr?

Həmçinin Allahın varlıqına dəlil bu kainatın tənzim ilə işləməsidir. Məsələn: Bir ildə dörd fəsil var, ta kainat bilinəndən bəri bu dörd fəsil öz ardıcıllığını qoruyub saxlayır. Əgər hər şey öz-özünə və öz başına olsaydı bu ardıcılığın pozulması lazım idi. Əgər bunu təsadüf adlandırırlarsa, bilin ki, təsadüflər boş yerə olmur. «Bağa baxarsan bağ olar baxmazsan dağ olar.» Əgər bu fəsillərin başçısı olmasaydı fəsillər bir-birinə qarışardı, yaydan sonra qış, yazdan sonra isə payız gələrdi. Amma bizə məlum olan qədər bu fəsillər arasında ardıcıllıq heç vaxt pozulmamışdır. Öz başına sahibsiz hansı sistem, hansı qanun neçə illər pozulmadan işləyə bilər?
Və yaxud bir ildə 365 gün 23 saat 56 dəqiqə 4 saniyə var. Bu prosses kainat bilinəndən bəri dəyişməyib. Bütün bunların sahibi olmasaydı illərdəki ayların, aylardakı günləin, günlərdəki saatların, saatlardakı dəqiqələrin və saniyələrin bir — birlərinə qarışması lazım idi.

Bəzən 1 ildəki günlərin sayı 350, bəzən 380 və ya 400 gün olardı və həmçinin günlərdəki saatların sayı bir gündə bəzən 15, bəzən 20 və ya 30 saatdan ibarət olardı . Əgər günəş sahibsiz olsaydı birgün şimaldan birgün cənubdan və yaxudda fərqli fərqli yerlərdən çıxardı.

Əgər bir məktəbdə tələbələr müəllimlər bəlli saatlarda məktəbə gəlib gedirlərsə, nizam intizamlı bir sistem varsa, deməli bu, məktəbin sahibsiz olmadığına dəlildir. Yəni direktorunun varlığına dəlildir. Əgər başçı olmasaydı müəllimlər və tələbələr nizam intizama əməl etməzdilər. Əgər başcı olmasaydı insanlar qayda-qanuna əməl etməzdilər. Başçı olmadan heç bir qurum, təşkilat və yaxud da dövlət öz –özünə ayaqda dura bilməzsə? Bəs başçısız bu kainat öz–özünə necə ayaqda dura bilər?! Bəzi insanlar isə bütün bu gördüklərini təsadüf adlandırırlar . Lakin bu qədər şey necə təsadüf ola bilər,

xüsusi ilə bu nizam-intizamın dəqiqliklə davamlı şəkildə işləməsi bunun təsadüf olmamasına dəlildir.

Pisxoloqlar təsadüflərlə əlaqədar öz kitablarında belə bir misal gətirirlər. Əgər əlimizdə kiçik bir topla boş bir otağa girsək və topu yerə atsaq top müxtəlif sürətlə müxtəlif istiqamətlərə hərəkət edərək müəyyən bir yerdə dayanacaq. Eyni bu prosesi tam dəqiqliklə təkrarlamaq ücün neçə milyon dəfə topu əvvəlki kimi atmaq lazımdır ki, ilk proses tam dəqiqliklə təkrarlansın. Ola bilsin heç təkrarlanmasın. Diqqət yetirin: Deməli təsadüfən, və ya kantrolsuz, neçə milyon dəfə bir şeyi təkrar etməklə, eyni şeyi, dəqiq şekildə, əldə etmək mümkün deyilsə, onda necə ola bilərki, neçə milyard illərdi, neçə milyard dəfələrlə, bir an belə pozulmadan, öz nizam-intizamını qoruyaraq, dəqiq şekildə işləyən bir sistemə, təsadüf «və ya öz başına əmələ gəlib» adını qoyaq. Deməli bu kainatda ki illərin ayların günlərin nizamlı şəkildə işləməsi , təsadüf və ya öz başına deyil.

Allahın varlığına iman etdikdən sonra, onu daha gözəl tanımaq üçün yenə də onun yaratdıqlarına baxıb düşünmək kifayətdir. Necə deyərlər: «Sənətkarın məharəti, qabiliyyəti, gücü və qüvvəti əl işindən bəllidir».

Əgər bizə desələr ki, möhtəşəm bir binanın proyektini çəkən arxitektor kardır, kordur və ya laldır, biz buna inanarıqmı? Əlbətdə ki yox. Deməli belə möhtəşəm bir əsəri ortaya çıxartmaq üçün insan gərək elmli olsun, elmli olmaq üçün də insan mütləq görməli eşitməli və bilməlidir. Elm olduqdan sonra da bu əsəri ortaya qoymaq üçün güc lazımdır. Deməli burdan başa düşülən odur ki, Uca Allah bu kainatı və içindəki million cür canlını yaradıbsa və bunu idarə edirsə O diridir, güclüdür elmlidir, görəndir, eşidəndir və danışandır. Alahın kəlamıda Qurani kərimdir.
Birdən ortaya sual çıxa bilər ki, mən Allaha inanıram. Amma Qurani Kərimin Allah tərəfindən yazılan bir kitab olduğunu qəbul etmirəm və ola bilsin ki o kiminsə tərəfinən yazılıb. Bu şübhə sahiblərinə cavab olaraq belə bir misal çəkək: Hər bir düzəldilən texnikanın hətda kiçik bir telefonun belə içindən istifadə olunma qaydalarını və təlimatlarını göstərən bələdçi bir kitab çıxırsa necə ola bilər ki kainatın ən qəliz mürəkkəb və həm də çox dəyərli olan bir məxluqun kitabı olmasın.

Qurani Kərim heç bir bənzəri olmayan möhtəşəm bir kitabdır və inanmayan insanlar tərəfindən dəfələrlə belə bir kitab yazılmasına cəhd edilsədə hamının cəhdi boşa çıxmışdır. Qurani Kərimə həyatın hansı sahəsindən baxsan orada bir adillik nəsihət və istiqmət taparsan. Quran psixoloji bir qaynaqdır. Elmi tərəfdən yanaşsan Qurani Kərim açıqlanan və açıqlanmayan elmi sirlərlə və möcüzələrlə doludur. Tibb baxımından yanaşsan Allah, Qurani Kərimi oxumağı şəfa olaraq endirib. Vallahı elə bir xəstəlik yoxdur ki onu Qurani Kərimlə müalicə etmək mümkün olmasın. İstər tibbə məlum olan istərsədə həkimlərin: «götürün aparın bizlik deyil» dediyi xəstəliklər.

Bu məsələni çox uzatmaq istəmirik kimin belə bir şübhəsi varsa Qurani Kərimin möcüzələri haqda yazılmış minlərcə kitablara müraciət edə bilər

Qurani Kərimin Allahın kitabı olduğuna iman gətirdikdən sonra onun içinə nəzər salmaq, oxuyub əməl etmək lazımdır.

Əgər Qurana nəzər salsaq görərik ki, Uca Allah bizi, Allaha və axirət gününə, qəbir əzabına və nemətlərinə, öldükdən sonra dirilməyə sorğu sual olunacağımıza, yaxşı insanların kitabının sağ, pis insanarın kitabının sol əlinə veriləcəyinə, ədalət tərəzisinin qurulacağına, sirat körpüsündən keçışə, cənnətə və cəhənnəmə inanmağımızı istəyir.

Kim desə ki «Qurana inanıram amma Allahın ölüləri dirildəcəyinə inanmıram öləndən sonra dirilmək boş şeydir. O dünyaya kim gedib gəlib.

Bu şübhə sahiblərinə cavab olaraq belə bir misal çəkək:
Əvvəla bu insan bu sözü ilə Allahı yalançı hesab edir. Çünki bəşər tərəfindən yazılması

mümkün olmayan Quran bunun əksini deyir. Quran Allah kəlamıdır. Allah insanları Qiyamət günü dirildəcəyini öz gücü ilə isbat edir: yerləri və göyləri yaratmaqla, kainatı xəlq etməklə, qışda yer üzərindəki yaşıllıqları öldürüb yazda onlara can verib diriltməklə. Yerlərin və göylərin yaradılması insanın yaradılmasındanda qəlizdir. Bunlara gücü çatan Allahın deyirsən səni yenidən xəlq etməsinə gücü çatmasın?! Bir usta üçün bir şeyi ikinci dəfə düzəltmək birincidəndə asandır. Birdə ki, əgər sən diridilməsəydin bu dünya KPZsində gözlədilməyinin nə mahiyyəti var idi. Deməli məhkəmə qurulacaq ki sən bu gün burda gözlədilirsən yoxsa bütün insanlar bir anda məhv olub gedərdilər. Insanın dünyaya gəlməsi böyüməsini qocalmasını ona həyatda ixtiyar və möhlət verilməsinin bir təsadüf olduğunu fikirləşirsənsə yanılırsan. Əgər dünyada biri sənə davamiyyətli yaxşılıq etsə.. Sən deməzsən mi ki : Xeyir ola bu mənə bu qədər yaxşılıqı niyə edir. Onun axı nə marağı var?! Bəs niyə görə, Allahın bu qədər nemətlərinin, sənə, qarşılıqsız verdiyini, və yaxud bu qədər nemətlərə görə sorğu sual olunmayacağını, mükafat və cəza tədbiri görülməyəcəyini düşünürsən?! Sənin bu düşüncələrin hansı məntiqə uyğundur?!

Deməli dedik ki, Allah ölüləri dirildəcəyini insanlara öz gücü ilə isbat edir. Yerləri göyləri yaratmaqla, kainatı xəlq etməklə, qışda yaşıllıqları şaxtayla öldürüb, yazda onlara can verib, diriltməklə.

Bəs sən ey insan, sən ki bir milçək, bir ot belə yarada bilmədiyin halda, «Öləndən sonra dirilmək boş bir şeydir»- «Cənnət və cəhənnəm elə bu dünyadadır» kimi iddiaları nə ilə əsaslandırırsan. Allahın gücü qüvvəti vədi göz qabağındadır bəs səninkilər hardadır.

Allahın ölüləri diriltmə xəbəri ta dünya yaradılandan bu günə kimi göndərilmiş 124 min Peyğəmbərin, 365 elçinin, dili ilə təsdiqlənmiş bir xəbərdir. Zəburda Tövratda İncildə və Quranda təsdiqlənmiş bir xəbərdir. Necə deyərlər: «Od olmayan yerden tüstü çıxmaz» Amma sən deyirsən bu tüstünün qaynağı yoxdu. Tarixi kitablara qayıtdığda isə, İsa Peyğəmbərin ölüləri diriltmə möcüzələri ilə doludur. Allah bizi eşidib faydalananlardan etsin. Amin.

İnsanın öz Rəbbini tanımaqla iş qurtarmır, toyuqda su içəndə başını yuxarı qaldırır. Əgər Allah bizə ağıl nemətini veribsə demək bunun müqabilində bizdən tələb etdikləridə var. Bu tələblərin başında da namaz durur.

Allah Təala Qurani Kərimdə namazı tərk edənlər barəsində buyurur: **»Onlardan sonra namazı tərk edib şəhvətlərə uyan bir qövm gəldi. Biz onları cəhənnəmdəki ğay dərəsinə atacağıq».**

Müsəlman qardaşlar və bacılarım, Namazı tərk etmək qulun həyatda itirə biləcəyi ən böyük itkidir. Çünki Namaz qulu Rəbbinə birləşdirən mühüm bir bağ və vasitədir. Bu bağ qopduqdan sonra insan zəlalət və küfr bataqlığında boğulmaması mümkün deyil. Amma çox təssüflər olsun ki, bu gün bizlərin çoxu insanları xəstə, şikəst, kor, kar gördüyümüz zaman onların halına, namazsız gördüyümüzdən daha çox acıyırıq. Halbuki bəsirət gözü ilə baxdığımız zaman, xəstəlik və ölüm həyatda itirdiyimiz ən böyük itki deyil, ən bəyük itki yaşarkən içimizdə ölən imandır. Namaz islamın 5 əsas dayağından birirdir. Peyğəmbər (Allahın ona salavat və salamı olsun) buyurur: ***»Bizimlə kafirlərin arasındakı əhd namazdır. Kim onu tərk edərsə küfrə düşər.»*** Ömər bin Xattab (Allah ondan razı olsun) buyurur : ***«Namazı tərk edənin islamdan payı yoxdur.»***

Allah Təala digər ayədə buyurur: **«Cəhənnəm əhlindən soruşarlar: Sizin cəhənnəmə düşmənizin səbəbi nədir? Cəhənnəm əhli belə cavab verər: Biz namaz qılanlardan və kasıbı yedizdirənlərdən olmadıq , batilə dalanlarla bizdə dalardıq, və Qiyamət günü dirilməyi inkar edərdik.»**

Ey Allahın bəndəsi! Namazı tərk etdiyin gündən Allahla arandakı əlaqə kəsilib və bu əlaqəni kəsməklə sən böyük bir xəzinənin açarını itirdin. İnsan bu dünyada bir yolçudur və bu yolçuluq ana bətnində dünyaya qədəm qoyduğu gündən, qəbrə kimi davam edir.

Namaz isə yolçunun özü ilə gəzdirdiyi azuqəsidir, ruhunun sağlamlığıdır, qəm kədərdən qurtulmaq üçün bir qapıdır. Dəstnamaz alıb iki rükət oxuduqlarını dərk edərək, səcdədə yalvarıb, yaxarıb dua edərək namaz qılmaq, sənin qəm qüssənə dərman olaraq kifayət edər.
Namazdan qafil qalanların qəlbləri elədikləri günahlardan dolayı qaralmış və daşlaşmışdır. Allah Təala Qurani kərimdə buyurur : «**Qiyamət günü səcdə etməyə dəvət olunduqlarında onlar səcdə edə bilməyəcəklər. Zillətə qərq olduğları halda, gözləri zəlilcəsinə yerə dikiləcək, halbu ki onlar dünyada sağlam olduqları vaxt namaza , səcdəyə çağırılırdılar.»** Onlar dünyada Allaha səcdə etmədikləri üçün, qiyamət günü də səcdə etməkdən məhrum olacaqlar. Dünyada ikən çağrılırdılar gəlmirdilər, işlərini və vaxtlarını bəhanə gətirirdilər, özlərini aldadırdılar. Amma məsələ imkan və vaxt məsələsi deyildi, məsələ iman və istək məsələsidir. Bir gün ərzində 24 saatdan 1 saat vaxtlarını ayırmırdılar. 1 namaz : 1stəkan çay içməkdən, 1 siqaret çekməkdən, 1 klip izləməkdən daha az vaxt alır. 5 vaxt namaz gündə : 1 saatdan, həftədə 7saatdan, ayda 1 gündən , ildə 12 gündən də az vaxt aparır. Nəfsani arzularını həyata keçirtmək üçün ağına bozuna baxmadan vaxtlarını və imkanlarını qurban verirdilər. Aylıq 500 manata kiminsə yanında səhərdən axşama kimi işləyirdilər amma Allahın onlara verdiyi göz, əl, ayağ və s kimi qiymətsiz nemetlər müqabilində gündə bir saat ayırmırdılar. Yəni Allah 500 manat qədərdə olmadımı ki, Əliyə Vəliyə ayırdığın vaxtı, Ona da ayırasan!? Bu kitabı oxuyan hər kəsə sual verirəm: Bizlərdən biri kiminsə yanında işləsə və ayın sonunda onun maaşını verməsələr, O nə edər? — Cavab bəlkə döyüşər, qəzəblənər və s. Amma ən azından 2 ci dəfə o adamla işləməz. Haqqımızı verməyəni silib atmaq üçün bir ay yetər. Yaxşı, onda Allah bizimlə nə etsin, nəinki 1 ay, 2 ay əksinə 10 illərdirki Allahın nemətlərini istifadə edirlər, amma onun haqqını vermirlər. Göz, qulaq, dil, əl, ayağ və s kimi nemətləri, heç bir kamunal xərc ödəmədən istifadə edib, qarşılığında səcdə etməmək nankorluqdur ya yox!? — Yaxşı nankorun duası qəbul olunacaqmı?! Nankora kömək olunacaqmı?! — Cavab açıq aydındır. Bu gün ki müsəlman aləməminin zəifləmə və budrəməsinin ana səbəbi də namazsızlıq, və yaxud da namazın canı, ruhu, özəyi sayılan, həmçini namazın vacib olunmasının əsas məqsədi olan «xuşunun» Namazda oxuduğu ayələrin, zikrlərin tərcüməsini bildiyi halda onları fikirləşərək, sanki Allahın qarşısında imiş, Onunla dərdləşirmiş kimi Namaz qılıb, Ona dua etməyın olmamasıdır. Allahı elm üzərində tanımağın, olmamasıdır. Əgər Allahı haqqı ilə tanısaydılar Ondan lazımınca qorxar, Ona lazımınca itaət edərdilər. Allah Təala buyurur : «**Allahın gözəl adları var, o adlarla Allahı çağırın, dua edin, O adlarla Ona təvəssül edin».**
Allah Təala buyurur: **«Qiyamət günü səcdə etməyə dəvət olunduqlarında onlar səcdə edə bilməyəcəklər. Zillətə qərq olduqları halda, gözləri zəlilcəsinə yerə dikiləcək, halbu ki onlar dünyada sağlam olduqları vaxt namaza , səcdəyə çağırılırdılar.»**

Onlar dünyada Allaha səcdə etmədikləri üçün, qiyamət günü də səcdə etməkdən məhrum olacaqlar. Dünyada ikən çağrılırdılar gəlmirdilər, təkəbbürlük edirdilər. Gəlməməklə yanaşı namaz qılanlarla istehza edib onları ələ salırdılar. Belə adamlara dini Allahı saleh əməlləri xatırladanda səni lağa qoyurlar. Allah Təala Qurani Kərimdə buyurur: **«Siz (əzanla) namaza çağrıldığınız zaman, onlar istehza edərək bunu oyun oyuncaq sayarlar, bu onların anlamaz bir tayfa olduqlarındandır».**

Digər ayədə Allah Təala buyurur: **«Həqiqətən günahkarlar, dünyada ikən iman gətirmiş kimsələrə, gülürdülər, iman gətirmiş kimsələri görəndə onları lağa qoyurdular.»**

Müsəlman qardaşlar və bacılarım, Heç kim ona ünvanlanan bu cür nalayiq sözlərə görə ruhdan düşməsin. İstehza etmək ağılın kamlığından irəli gəlir. Qoy gülsünlər, yaxşı-yaxşı gülsünlər. Amma xoşbəxt axırda gülən kimsələrdir. Necə ki Allah Təala buyurur : **«O gün axirətdə iman gətirənlər kafirlərə güləcəklər».**
İnsanlar namaza qarşı səhlənkarlıq edərək çoxlu xeyrdən geri qaldılar. Bu dünyada namaz qılmadan xoşbəxtlik axtaran insanın halı doğurdanda çox qəribədir. Bəlaları dəhf etmək

Allahın əlindədir, ölüm və həyat Allahın əlindədir, xəstələrə şəfa vermək Allahın əlindədir, ruzini genişləndirmək Allahın əlindədir, bütün xeyir qapılarının başı Allahın əlindədir, O bir şeyin olmasını istədikdə ondan yalnız ol deməkdir. Ona geden yol isə namazdan keçir, daşlardan, qayalardan, pirlərdən qəbirlərdən deyil. Allah özü ilə qulları arasında namazı vasitə etdi pirləri və qəbirləri deyil. Allah dünyadaki məmurlar kimi deyilki ona çatmaq üçün mütləq kimisə araya salasan. Allahla insanın arasını korlayan pozan şeylər ancaq günahlardır və bunun əksi olaraqda insanı Allaha yaxınlaşdıran şeylər isə ancaq namazla, yaxşı əməllərlə dualarla edilən təvəssüldür. Necə ki, şair batil təvəssül barədə buyurur:

Keçsə idi vastəçilik, islam dinində

Dünyadan fərqi qalmazdı, bu dinin də

Ədalət silınərdi bəndələrin zehnində

Patışah qafildir haldan vasitəsiz anlamaz

Allah kamildir patışaha müqayisə olunmaz

Həyatda xoşbəxtlik axtarıb amma namaz qılmayanlara Allahın bu ayəsini xatırlatmaq istəyirəm. Allah Təala buyurur : **«Mömінlər xoşbəxtlik tapdılar, hansı möminlər, o möminlər ki, namazlarını xuşu ilə qılarlar».**

Peyğəmbər (Allahın ona salavat və salamı olsun) səhih bir hədisdə belə buyurur: ***«Kim namaz üzərində mühafizəkar olarsa, yəni namazını davamiyyətli qılarsa, qiyamət günü onun namazı, ona nur və nicat olar. Yox əgər kim də, namazını davamiyyətli qılmazsa, qiyamət günü onun üçün nə nur, nə də nicat olar. Və o insan qiyamət günü ən şərli insanlarla — Vəzifə düşgünü olan Həmən, Mal dövlətin köləsi olan Qarun, həm dünya həmdə vəzifə düşgünü olan təkəbbürlü və lovğa Firon və sonda azmış tacir sayılan Ubeyyə bin Xələflə bir yerdə həşr olar»***.

Ey namazdan uzaqlaşmış kimsələr! Soruşun həqiqi namaz qılıb, namazlarına sadiq qalan kimsələrdən, namazda nə tapdılar ki ona belə bağlandılar.

Cavab: Qəlb rahatçılığı, hüzur, sükunət, sevinc və xoşbəxtlik. Hüzur tapan insan salamat olar, salamatçılığa çatan 2-ci bir şey isə yoxdur. Həmçinin bunun əksinə baxdığımız zaman, ən sıxıntılı insanlar, namazı tərk edən və yaxutda namazlarına səhlənkar yanaşan kimsələrdir. Allah hər kəsə hidayət versin, hidayət etdiklərinidə sabit etsin. Müsəlman bacı və qardaşlar, Allaha və axirət gününə, Qurana kamil inanan kimsə Allahdan sevgi və ümüdə dayanan bir qorxu ilə qorxmalı, Qurani-Kərimdə və Peyğəmbərin (Allahın ona salavat və salamı olsun) hədislərində söylədiyi əmrləri yerinə yetirməli, qadağan edilənlərdən isə çəkinməlidir. Allahın insanlardan tələb etdiyi də elə məhz budur.

Allahdan sevgi və ümüdə dayanan bir qorxunu, hər bir müsəlmanın həyatda ikən qazanması vacibdir. Onsuz həyat sıxıntılı, və əxlaqi tənəzzülə uğramış, onsuz isə insanlar dəyərsizdir. Hətta Var dövlətə, mal-mülkə sahib olsalar belə, onu itirən həyatda hər bir şeyini itirmişdir. Onu qazanan isə həyatda çox şey qazanmış olur, hətta var-dövləti əlindən çıxsa belə.
Məsələyə həmişə zahiri ilə dəyər vermə. Çox insanlar gördük üzərlərində zənginlik yoxdur çox zənginliklər gördük içində insan yoxdur. Amma bu fərqi hər şeyi madiyyatda axtaran kimsələr çox vaxt görmür, çünki hər şeyi madiyyatda axtaranların gözləri isə mənəviyyata kordur. Allah bizləri o kimsələrdən etməsin.

Hazırladı: ***Beynəlxalq Mədinə İslam Universitetinin məzunu, Elman Qasımov***

Elman Qasımovun «Dərdlərin dərmanı, sıxıntıların çarəsi» kitabından.

Sonda Həmd olsun aləmlərin Rəbbi Allaha